ƏBDÜRRƏZZAQ İBN ƏBDÜLMÜHSİN ƏL-BƏDR



# YAŞLI KİMSƏNİN İSLAMDAKI HAQLARI

Tərcümə: Sahib Əsədov

Sələfin Əxlaqı

# YAŞLI KİMSƏNİN İSLAMDAKI HAQLARI

**Müəllif:**
ƏBDÜRRƏZZAQ İBN ƏBDÜLMÜHSİN ƏL-BƏDR

**Tərcümə:**
SAHİB ƏSƏDOV

**Bakı - 2013**

# TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

*Mərhəmətli və Rəhimli Allahın adı ilə. Allaha həmd olsun! Onun Elçisi Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!*

Hörmətli oxucu! Hazırda oxuduğunuz "İslamda Yaşlı Kimsənin Haqları" kitabçasını on iki il öncə ərəbcədən dilimizə tərcümə etmişəm. Lakin müəyyən səbəblərdən kitabça nə nəşr edilmiş, nə də sosial şəbəkələrdə geniş paylaşılmışdı. İstədim ki, əxlaq mövzusunda böyük əhəmiyyəti olan bir mövzuda yazılmış bu kitabçanın tərcüməsini yenidən nəzərdən keçirim və oxucuların istifadəsinə verim. Müvəffəq edən Allahdır!

Bu kitabçanın üslubu ilə bağlı onu deyə bilərəm ki, kitabçanın ərəbcə orijinalında olduğu kimi mənbələr mətnin özündə verilmiş, haşiyədə qeyd şəklində verilməmişdir.

Kitabçanın ilkin tərcüməsində hədislər deyil, yalnız ayələr ərəbcə verilmişdi. Azərbaycan dilində oxuyan oxuculara asanlaşdırma edilməsi baxımından həm ayələrin, həm də hədislərin yalnız Azərbaycan dilində verilməsi bu nüsxədə nəzərə alınmışdır.

Xalqımız daim böyük-kiçiyin yerini bilmiş, "böyüyə hörmət, kiçiyə mərhəmət" prinsipi ilə yaşamışdır. İslami və mənəvi dəyərlərimizlə bağlı olan bu kitabça ümid edirəm ki, xalqımız tərəfindən rəğbətlə qarşılanacaqdır! Uca Allahdan bu kitabçanın xeyirli və bərəkətli olmasını diləyirəm!

***Yazdı:*** *Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov* ***Mədinə şəhəri. 21.01.2025.***

## Müəllifin Ön Sözü

Mərhəmətli və Rəhimli Allahın adı ilə

Kərim olan Allahın şanına yaraşan şəkildə ən gözəl həmd-sənalar, təriflər olsun! Rəbbimizin sevdiyi və razı qaldığı şəkildə ona çoxlu sayda, gözəl, xeyirli qılınmış həmdlər edirəm. Ona bizi bu əzəmətli dinə yönəltdiyi üçün və bizə öz şərəfli peyğəmbərinin (Səllallahu aleyhi və səlləm) yoluna tabeçiliyi lütf etdiyi üçün həmd edirəm. Ona gizlində və aşkarda, xüsusi və ya ümumi, ölü və ya diri, var olan və artıq əlimizdə olmayan, yeni bəxş etdiyi hər bir nemətə görə həmd edirəm. Həmd Onun razı qalacağı şəkildə Ona məxsusdur!

Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun heç bir (tayı, bərabəri) şəriki yoxdur. Ondan başqa rəbb də yoxdur. Əziz və Cəlil olandan başqa Yaradan yoxdur. O, əvvəlkilərin və sonradan gələnlərin Rəbbidir. O, göylərin və yerlərin Qəyyumudur və bütün bəşəriyyətin yaradıcısıdır.

Şəhadət edirəm ki, Məhəmməd (Səllallahu aleyhi və səlləm) Onun qulu, elçisi, seçilmiş bəndəsi, xəlili, vəhyini etibar etdiyi şəxs və insanlara Onun şəriətini çatdırandır. O (Səllallahu aleyhi və səlləm), ümmətinə gecəsi də gündüzü kimi olan işıqlı bir yol qoyub getmişdir. Ondan sonra o yoldan həlak olan kəsdən başqası azmaz. O, hüccət olaraq o işıqlı yolu göstərmiş və yolu izah etmişdir. Ümmətinə bütün xeyirləri göstərmiş və bütün şərlərdən çəkindirmişdir. O, özünə ölüm gəlincəyə qədər Allahın dinini yaymaqda səy göstərmişdir.

Allah, Onun mələkləri, peyğəmbərləri və saleh qulları

ona çoxlu salavat və salam edirlər.

Sonra. Həqiqətən də insanlar Allahın, peyğəmbərin, valideynlərin, qonum-qonşunun və yaşlı kimsələrin haqlarını yaxşı bir şəkildə xatırlanmasına ehtiyac duyurlar.

Bu hüquqları xatırlamaq xeyirə böyük bir giriş qapısı, islah və qurtuluş üçün yoldur. Müsəlman kimsə isə gərək xatırladıldığı zaman xatırlasın, xeyir yolu göstərildiyi zaman o yolla getsin. Uca Allah buyurmuşdur:
**"Xatırlat, çünki, xatırlatmaq möminlərə fayda verər".** (əz-Zariyat. 55).

Gərək müsəlman kimsə bu mübarək İlsam şəriətinin gözəlliyi, bu dinin ədalət dini olması və hər bir haqq sahibinin haqqını vermək həqiqətinə çatsın. Necə ki, Allahu təala buyurmuşdur:

**"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız".** (Nəhl. 90).

Müsəlman gərək bu haqları yerinə yetirsin. Bir şeyi itirmiş kimsə onu başqasına verə bilmədiyi kimi, Allahın, peyğəmbərin, valideynin, qonşunun, yaşlı kimsənin və digərlərinin haqlarını bilməyən biri necə onların haqlarını əda edə bilər? O kimsə necə ədalətli ola bilər?

Buna görə də ən mühüm şeylərdən və ya vacibatlardan biri də haqları öyrənməyə diqqət göstərməkdir. Müsəlman gərək bu haqları geniş, tam şəkildə yerinə yetirmək üçün diqqət göstərsin və (əvvəlcə özünün) buna əməl etməsi

qəsdiylə bunu öyrənsin. Bunun kimi o gərək mütləq şəkildə o haqları Allaha ibadət və ona yaxınlaşmaq olaraq yerinə yetirsin ki, bu bilgi (yəni, haqlara yaxşı bələd olmaq) sadəcə bilmək, məlumatı artırmaq, elmin çoxalması qəbilindən və ya bunlar kimi bir qəbildən olmasın. Bu isə elmdən qəsd olunan şey deyildir. Ona görə də Əli ibn Əbu Talib (Allah ondan razı olsun) demişdir: "Elm əməllə əlaqələndirilir, əgər ona uyğun gələrsə, hasil olar, əgər uyğun gəlməzsə, o gedər". (Xətib "İqtidəu əl-ilmu əl-amələ" 40).

O zaman, deməli, bu məlumat ya sənin lehinə, ya da əleyhinə hüccət olmaqdan xali deyildir.

Əgər xeyir, haqq və doğru olan şeylərdən sənə göstərilənləri və eşitdiyini tətbiq etməklə buna diqqət göstərsən, bu sənin lehinə olar. Əgər bu məlumat və elmlərdən sənin payın sadəcə eşitmək olarsa, (bu zaman nəticə bu hədisdəki kimi olacaq): "Quran ya sənin lehinə, ya da əleyhinə hüccətdir". (Səhih Müslim. 328). Necə ki, bunu Allahın elçisi (Sallallahu aleyhi və səlləm) söyləmişdir. Bu isə bizim hər birimizdən bu haqları eşitdiyimiz zaman öz qəlbimizdə Allah və özümüz arasında yaxşı niyyət tutmağı gərəkdirir. Bu, həmin haqları yerinə yetirmək, tamamlamaq və kamilləşdirmək üçündür. Belə olduqda insanın nəfsi əməl etməyə hazır olar və xeyri dinləyər. Bu, insanın nəfsinin etiraz edən, sonraya saxlayan, zəiflik göstərən olması üçün deyil. Əgər nəfsin halı belə olarsa, bundan faydalanmaq olmaz. Bu səbəbdən də ibn Qeyyimin – Allah ona rəhmət etsin – «Xoşbəxtlik Evinin Açarı» əsərində qeyd etdiyi kimi bizim bunu yerinə yetirməyə iki cəhətdən ehtiyacımız var: "Hər bir insanın kamilliyi yalnız bu iki növlə tamamlanır: Yüksəldici həvəs və istiqamət verən, doğru yola yönəldən elm". Çünki, səadət və qurtuluşun mərtəbələri qula bu iki cəhətdən və ya bunların birindən gəlir. Ya onun bu barədə

elmi olmur və onu tələb etmək üçün hərəkət etmir və ya o haqda (səadət haqda) elmi olur, lakin ona yönəldən həvəsi olmur".

Bu iki məsələ ən mühüm olan iki məsələdir; Səni haqqa, doğru yola yönəldən elm və səni ayağa qaldıran uca həvəs. Yəni, bu xeyir cığırlarında və fəzilət yollarında baş verir. Əgər insanın buna elmi olar, lakin onun əməl etməyə həvəsi olmazsa, onun əməli öz əleyhinə hüccət olar. Əgər onun elmi olmadan yüksək həvəsi olarsa, onda onun işləri gözündə zəiflik olan dəvə kimi gedər.

Bizim faydalı bir elmə ehtiyacımız olduğu kimi, həmçinin insanı bu vacib haqları əda etməyə sövq edən yüksək həvəsə də ehtiyacımız var. O həvəs ki hər bir müsəlman kişiyə və qadına o haqları vacib edir.

**Gözəl əxlaqın əhəmiyyəti.**

Həqiqətən qürurumuz olan şəriətimizin gözəlliyindəndir ki, bu şəriət gözəl əxlaq və onun yüksək xüsusiyyətlərilə gəlmiş, əxlaqi rəzillik və səviyyəsizlikdən çəkindirmişdir. Peyğəmbər (Səllallahu aleyhi və səlləm) buyurmuşdur: **"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim".** (Əhməd. 8952, Buxari “Ədəbul-Mufrad”. 273, Əbu Hüreyrənin hədisi, əl-Albani "səhih" olduğunu bildirmişdirmişdir).

Həmçinin, peyğəmbər (Səllallahu aleyhi və səlləm) buyurmuşdur: **"Mənə ən sevimli və qiyamət günü ən yaxın olanınız əxlaqı ən gözəl olanınızdır".** (Tirmizi. 1941, Cabirin (radiyəllahu anhu) hədisi. əl-Albani “Səhihul-Cami”də: "həsən" demişdir. 2201).

Həmçinin, o (Səllallahu aleyhi və səlləm) buyurmuşdur:

**"Həqiqətən də mömin kimsə gözəl əxlaqı ilə (gündüzləri) oruc tutanın, (gecələri) ibadətdə oyaq keçirənin savabını qazanar".** (Əhməd. 25013, Əbu Davud. 4165, Aişənin hədisi. əl-Albani “Səhih ət-Tərğib vət-Tərhib” əsərində "səhih" olduğunu bildirmişdir. 2643).

## Gözəl əxlaqla İslamın gözəlliklərini çatdırmaq.

Gözəl əxlaq bu şəriətin dəvət etdiyi xüsusiyyətlərdən biridir; Bu şəriət Allahla, Onun peyğəmbərilə (Səllallahu aleyhi və səlləm), Allahın qulları ilə kamil ədəb və yüksək əxlaqda olmağa dəvət etmişdir. Bu mübarək ədəblər və yüksək əxlaqlardır. Bu əxlaqlarla bu dinin gücü və kamilliyi, tamlığı və yüksəkliyi təcəlli edir. Həmçinin bu din etiqadları, ibadətləri, ədəb və əxlaqları ilə gözəlliklər dinidir. O zaman ki, bəzi müsəlmanlar bu nöqtəyə diqqət yetirməyə laqeyd yanaşdılar, insanların bu istiqamətdən (gözəl əxlaq vasitəsilə) dini qəbul etmələrinin təsiri zəiflədi. Əgər iman əhli öz dinlərinin onları çağırdığı haqlara, vacibatlara, ədəb və gözəlliklərə riayət etsəydilər və onlarda bu xüsusiyyətlər biruzə verərək aşkar olsaydı, onda bu İslam dinini qəbul etmək üçün ən böyük qapılardan biri olardı. İslam ümmətinin şahidi olduğu elə zamanlar olmuşdur ki, insanlar din əhlindən gördükləri hərtərəfli yaxşı rəftarları, gözəl ədəbləri və əxlaqlarının kamilliyi səbəbilə Allahın dininə dəstə-dəstə, camaatlar halında daxil olmuşdular. Bir dəfə əllamə şeyx Əbdül-Əziz ibn Bəzin (Allah ona rəhmət etsin) bir söhbətini oxudum. O, orada Allaha and içərək belə deyirdi: "Bu gün müsəlmanların, bütün dünyaya Allahın dininin çatdırılmasına, gözəlliklərinin izhar edilməsinə, həqiqətlərinin bəyan edilməsinə çox ehtiyacları var. Əgər dünya insanları İslamın həqiqətini bilsələr, onlar bu gün İslamı dəstələr halında qəbul edərdilər. Necə ki, Allah öz peyğəmbərinə (Səllallahu aleyhi və səlləm) Məkkənin fəthini açdı". (Fətvalar toplusu. 2/338).

O doğurdan da çox doğru söyləmişdir. Mən özüm bir dəfə hindistanlı bir kişiylə görüşmüşdüm. Onun şəxsi səyi, dəvəti səbəbilə mindən çox hindistanlı İslam dinini qəbul etmişdir. Onların hamısı da ikisi birgə dəvət olunmadan tək-tək İslamı qəbul etmişlər. O yalnız tək-tək dəvət edirdi. Onun dəvətdəki üslubu bu dinin gözəlliklərini, ədəblərini, kamilliklərini yaxşıca tanıtmaq idi. Bir başqası isə; əgər o, hindlilərdən biriylə qarşılaşardısa, çox zaman üzüntülü, qəmli və hüzünlü kimsələri və ya müəyyən problemə düşmüş insanları seçər, onunla birlikdə əyləşər, onun halından, problemindən xəbər tutar, sonra isə o kimsəyə İslamın bəzi gözəlliklərindən danışardı. O hindistanlı dəvətçi bir dəfə mənə dedi: "Onların çoxusuna əksər hallarda on beş dəqiqəlik bir söhbət, ən çoxu isə yarım saat bəs edirdi. Mən bir kəsi (dəvət etdikdə) İslamın gözəlliklərindən bəzilərini sadalayırdım, o da məndən bu dinə necə daxil olmağın gərəkdiyini soruşardı". – O, "Müsəlmanlardan olmağın yolu nədir?" – deyən kəsə İslamı anladar, beləcə o kəs müsəlman olardı.

Həqiqətən də, biz İslam topluluğu, Məhəmməd ümməti əvvəlcə dinimizin gözəlliklərini bilməyə ehtiyaclıyıq. Onun şirin bulağına və təmiz mənbəyinə, onun kölgəsi altına qayıtmağa və onun şirinliyinə doymağa, İslam ədəbləriylə ədəblənməyə, aləmlərin Rəbbinin bizi dəvət etdiyi əxlaqlara diqqət göstərməyə susamışıq. Biz hiss edirik ki, bu əxlaqlar bütün varlığı yaratmış olan aləmlərin Rəbbinin dəvət etdiyi bir şeydir. Pak və uca olan Allah Müdrikdir və yaratdıqlarını Biləndir. Biz Onun əmrlərinə tabe olub Ona itaət etməklə Rəbbimizin vacibat və haqlardan əmr etdiklərini yerinə yetirənlər üçün hazırladığı əcri və şərəfli vədlərin gerçəkləşməsini umuruq.

Sən gərək mütləq bu məsələyə diqqət yetirəsən. Çünki,

bu haqlara Allahın mükafatını istəyərək, dünya və axirətdə onun vədinin gerçəkləşməsini gözləyərək riayət və əda etməyin yalnız Allaha itaətdir. O mükafat və nemətlər ki, tezləşdiriləcəkdir. Uca Allah (onlar haqqında) buyurur:

**"Biz sizi yalnız Allahın Üzü xatirinə yedizdiririk və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!"** (əl-İnsan. 9).

Nə badə yaxşılıqda özünü hakim təyin edərək yalnız qarşılıq güdərək əta edən, yalnız yanına gələn adamın yanına gedən, əlaqənin kəsildiyi zaman əlaqəni kəsən olasan! "Səhabələrdən biri peyğəmbərə (Səllallahu aleyhi və səlləm) dedi: Ey Allahın elçisi! Mənim qohumlarım var. Mən onlarla qohumluq əlaqəsi qururam, onlar isə bu əlaqəni kəsirlər.Mən onlara yaxşılıq edirəm, onlar isə mənə pislik edirlər. Mən onlarla nəzakətli davranıram, onlar isə mənimlə kobudluqla rəftar edirlər". Peyğəmbər (Səllallahu aleyhi və səlləm) isə ona qohumlarıyla əlaqəni kəsmək kimi məzəmmətli bir şeyi etməsini tövsiyə etmədi. Baxmayaraq ki, onlar özləri o əlaqələri kəsirdilər. O (Səllallahu aleyhi və səlləm), ona yalnız "onlar əlaqəni kəssələr belə onlarla əlaqə saxlamağı" tövsiyə etdi və ona (bununla) qazanacağı böyük nəaliyyəti və Allahın ona verəcəyi mükafatı xatırladaraq dedi: "Əgər sən dediyin kimi olarsansa, sanki, sən onlardan incikliyi qaldırmış olarsan. Sən belə davam etdiyin müddətcə Allah tərəfindən olan yardımçı sənin yardımından ayrılmaz". (Səhih Müslim. 6440. Əbu Hüreyrənin hədisi).

## Yaşlı Kimsələrin Haqları

Bu başlanğıc (giriş) boyunca əsas mövzuya daxil olduq. Bu hənif dinin dəvət etdiyi böyük haqlardan biri də “Yaşlı kimsənin haqları”dır. Bu yaşlı (qoca) kimsə istər ata, istər

yaxın birisi, istər də qonşu, müsəlman və ya qeyri müsəlman olsun, yaşlı kimsənin şəriət tərəfindən qorunmuş, mühafizə edilmiş və məsuliyyətı daşınılan haqqı vardır.

Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) gələn səhih bir hədisdə peyğəmbər (Sallalahu aleyhi və səlləm) buyurmuşdur: **"Həqiqətən müsəlman yaşlıya, quranı haqqını əda edərək daşıyana (hafizə) və ədalətli rəhbərə hörmət etmək Allahı uca tutmaqdan sayılır".** (Əbu Davud. 4834. əl-Albani "Səhihul-Cami"də bu hədisə "həsən" demişdir. 2199.)

Bu üç qisim insana hörmət etmək Allahın şənini uca tutmaqdandır. Allahın şanını uca tutmaq isə ən yüksək qayələrdən və ən şərəfli məqsədlərdən biridir. Bu vacibi etməkdə qüsura yol vermək Allahın şanını uca tutmaqda yol verilən qüsurdur. Çünki, aləmlərin Rəbbi səni bu işi görməyə onda olan xeyir, məsləhət, yaxşılıq, kamillilk və gözəllik üçün dəvət etmişdir. Əgər qüsurlu davranarsansa, bu qüsurun Allahın şanını uca tutmaqdakı zəyifliyin sayılır. Bu hörməti əda etməyin isə Allahın şanını uca tutmaqdan sayılır.

Sən hələ bu haqqın, yaşlı kimsənin, yaşlı müsəlman kimsənin haqqına riayət etməklə ərsəyə gələn yüksək dərəcəyə bax!

Səhih bir hədisdə peyğəmbərimizin (Səllallahu aleyhi və səlləm) belə dediyi sabit olmuşdur: **"Böyüklərimizə hörmət etməyən, kiçiklərimizə də mərhəmət göstərməyən bizdən deyildir".** (ət-Tirmizi 1842, Ənəsin hədisindən. Bu hədis "əs-Sahiha" əsərində 2196 nömrəli hədisdir).

Yəni, böyüklərə hörmət və ehtiram edilir. Onların öz yeri,

öz qədir-qiymətləri vardır. Onların qorunmalı və riayət edilməli haqları vardır. Kim böyüyə hörmət etməzsə, bizdən deyildir.

Peyğəmbərin (Səllallahu aleyhi və səlləm) **"bizdən deyildir"** sözündəki məna: Kim böyüklərə hörmət etməzsə, peyğəmbərin irşad etdiyi, göstərdiyi yol və sünnə üzərində deyildir.

### Yaşlı Kimsəni Əhatə Edən Müxtəlif İnsanlar

Bu (yaşlı kimsəyə aid olan) haqq onu əhatə edən şəxslərin müxtəlifliyi cəhətindən böyüyür və əzəmətlənir. Əgər (yaşlı kimsə) onun yaxını olarsa, onun yaxınlıq haqqıyla bərabər qocalıq haqqı mövcud olacaqdır. Əgər (yaşlı kimsə) onun qonşusu olarsa, onun qocalıq haqqına qonşuluqda qalmaq haqqı əlavə ediləcəkdir. Əgər (yaşlı kimsə) müsəlman olarsa, onun qocalıq haqqıyla bərabər İslam haqqı da olacaqdır. Əgər böyük kimsə ata və ya baba olarsa, o zaman haqq daha da böyük olar. Əksinə, əgər yaşlı qeyri-müsəlman olarsa, onun (sadəcə) yaşlılıq haqqı olacaqdır. Şəriətdə hətta bir insan qeyri-müsəlmanlardan belə olsa, şəriət ona böyüyün haqqını qorumaq əmrilə gəlmişdir. Ola bilsin ki, bunun səbəbi onun haqqına riayət etməklə onun ömrünün axır mərhələsində və dünyadan ayrılmasının yaxınlaşdığı bir vaxtda onun bu dini qəbul etməsinə səbəb olsun və o beləcə, bu dinin lətafətini, şərafətini və gözəlliyini görsün. Xüsusilə də o öz haqlarını batil inancların və xurafatların içində itmiş görür. O təkəbbürlü etiqadlar ki, onların üzərində yaşamış və böyümüşdür. Beləcə, bu (yaşlı kimsə) tapdığı "günəş kimi aydın məsələnin səbəbiylə" İslamı qəbul edir. Onun bu haqqı zay edildiyində bu, onunla bu dini qəbul etmək arasında maneəyə çevrilir. Bu isə mütləq nəzərə alınmalı olan bir mülahizədir.

## Yaşlıya Hörmətlə Əlaqəli Maraqlı Bir Hekayə

İndi də İmam Əhmədin "Müsnəd"ində rəvayət etdiyi maraqlı bir qissəyə diqqət yetirək. Bunu Əbu Bəkrin qızı Əsma rəvayət etmişdir. O demişdir:

"O zaman ki, Allahın elçisi (Səllallahu aleyhi və səlləm) Tuvada dayandı, Əbu Quhafə öz övladlarından olan ən kiçik qızına dedi:

"Ey qızım! Mənimlə birgə Əbu Qabisin qarşsında görünərsən.

– Qız dedi: O görmə qabiliyyətini itiribmi? – Qız sonra dedi: Mən bununla onu (kim olduğunu) araşdırdım.

– Atası dedi: Ey qızım, nə görürsən?

– Qız dedi: Uzaqda cəm olmuş bir qaraltı görürəm.

– Atası dedi: O at sürüsüdür.

– Qız (yenə) dedi: Həmçinin, bu qaraltı arasında gedib-gələn bir kişini görürəm.

– Atası dedi: Ey Qızım, o bələdçidir. Yəni, at sürüsünə yol göstərib sürünün önündə gedəndir.

– Qız dedi: İndi qaraltı çoxaldı!

– Kişi dedi: Sürü sürətlə gedir, sən mənimlə evə getməyə tələs!

– O da onunla getməyə tələsir. O evinə çatmadan yolda sürü ilə qarşılaşdı. Cariyənin boynunda isə yaş çubuqdan xalta var idi. Kişi (qızın atası) onu qarşıladı və onun boynundan xaltanı çıxartdı.

O zaman ki, Allahın elçisi (Səllallahu aleyhi və səlləm) Məkkəyə daxil olaraq məscidə girdi, Əbu Bəkir (Allah ondan razı olsun) atasıyla birgə onun yanına gəldi. Allahın elçisi (Səllallahu aleyhi və səlləm) onun atasını gördükdə dedi: "Olmazdımı bu qocanı evində bıraxardın, mən özüm oraya onun yanına gedərdim?!"

Əbu Bəkir (Allah ondan razı olsun) dedi: "Ey Allahın elçisi! Sənin onun yanına getməyindən, o daha çox sənin yanına

gəlməyə haqlıdır!"
– Sonra Peyğəmbər (Səllallahu aleyhi və səlləm) onu (Əbu bəkrin atasını) qarşısında oturtdu və sinəsinə toxunaraq: "İslamı qəbul et!" dedi. O da İslamı qəbul etdi. Əbu Bəkir atasıyla onun saçları ağarmış olduğu halda Allah elçisinin (Səllallahu aleyhi və səlləm) yanına daxil olmuşdu. Ona görə də O (Səllallahu aleyhi və səlləm) belə demişdi: "Onun saçından bunu (bu ağartını) dəyişdirin". Sonra Əbu Bəkir – Allah ondan razı olsun – ayağa qalxdı və bacısının əlindən tutub dedi: Allah və İslam xatirinə bacımın vəkalətini istəyirəm. – ona heç kim cavab vermədi – O isə dedi: Ey (kiçik) bacım! Öz vəkalətini mənim üzərimdə bil!" (İmam Əhmədin "Müsnəd" əsəri, 26956; əl-Albani "əs-Sahihə" əsərində bunu "yaxşı" hesab etmişdir, 1/895)

Ənəsin (Allah ondan razı olsun) hədisindən müxtəsər olaraq rəvayət olunan hədisin bu ləfzində isə: "Bu qocanı öz evindən gətirməsəydin barı, biz özümüz Əbu Bəkirə hörmət olaraq (onun yanına) gələrdik" – deyilir.

Hansı hadisə buna bənzər ola bilər? Görün bu danışıq qəlbə necə təsir edər? Allaha and olsun ki, bu cür danışıq qəlbi iki yerindən onun dəvət olunduğu şeyə doğru açar və onu qəbul edən hala gətirər. Buna görə də o (Əbu Bəkirin atası) tərəddüd etmədən İslamı qəbul etməyə tələsdi.

Bunun əksinə, əgər insanın atası qeyri-müsəlman olarsa, hətta, o öz övladını küfrə dəvət etsə belə, şəriət onun valideynlik haqqını qorumaqla gəlmişdir. Uca Allah buyurmuşdur:

**"Əgər onlar (valideyinləriniz) bilmədiyin bir şeyi mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr onlara güzəştə getmə! Onlarla dünyada**

**gözəl şəkildə davran!"** (Loğman. 15).

Allah bu ayədə demədi ki: "Əgər bilmədiyin bir şeyi mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, (üzlərinə ağ olub) onlara qarşı çıx!". Əksinə O: "Onlara güzəştə getmə!" – buyurdu. Bunun kimi, əgər insanın atası namazı tərk etmiş və ya fasiq biri olarsa, yenə onun atalıq və qocalıq haqqı üzərində qalmış olur. Yenə onunla bu haqqın gərəkləri etibarilə onun qəlbini qazanmaq və haqqını əda etməklə rəftar edilir. Ola bilsin ki, Allahu təbərakə və təala onu haqqa və doğru yola qayıtmağa yönəltsin. Eyni zamanda ona ədəb-ərkanla, özünü onun qarşısında yüksəltmədən və üstünlük nümayiş etdirmədən nəsihət etmək lazımdır. Ola bilsin ki, Allahu təbərakə və təala onun valideyninə hidayət və doğru yola müvəffəq olmağı bəxş etsin!

Hər bir halda, bizim dinimiz (İslam) yaxşılıq, xeyirxahlıq, nəzakətli olmaq, adillik, haqları qorumaq, yerinə yetirmək və hər bir haqq sahibinin haqqını vermək dinidir. Şəriətimiz də, müsəlman olmasa belə böyüyün haqqını qorumaq və o haqqa riayət etməklə gəlmişdir. Bəs görün o böyük kimsə müsəlman olduqda, qonşu, yaxın, ata və ya ana olduqda necə (ehtirama layiq) olar?! Şəkk yoxdur ki, o zaman onun haqqı daha da böyük olar.

## Yaşlı Valideynə Xidmətlə Allaha Təvəssül Etmək

Həqiqətən, bu ehtiram Allaha yaxınlaşdıracaq ən fəzilətli əməllərdən, Onun razılığını qazanmaq, üzüntüləri aradan qaldırmaq, işləri asanlaşdırmaq üçün ən böyük vəsilələrdəndir. Necə ki, buna mağaraya sığınmış üç nəfərin hekayəsi dəlildir. Onlar dağda olan bir mağaranın içinə girərək oraya sığınmış, sonra dağdan bir qaya parçası yuvarlanıb o mağaranın girişini qapatmışdı. Onların hər biri

də saleh əməlləri ilə təvəssül[1] etmişdilər. Onlardan birinin vəsiləsi isə bu böyük haqqı əda etməsi və bu şərəfli qayəyə riayət etməsi ilə olmuşdu. Bu baxımdan o öz təvəssül duasında belə demişdi: "Ey Allahım! Mənim qoca, yaşlı atam və anam vardı. Mən onlardan əvvəl evdəkilərə sabah yeməyi vermirdim. Bir gün bir ehtiyacımdan dolayı evdən uzaqlaşası oldum və onlar yatana kimi onların yanına gedə bilmədim. (Evə qayıtdıqda) Mən onların şorbalarını[2] hazırladım, onların yatdıqlarını gördüyüm üçün onlardan əvvəl evdəkilərə yemək vermək istəmədim. Qədəh əlimdə ola-ola dan yeri sökülənə kimi eləcə onların oyanmalarını gözlədim. Sonra onlar yuxudan oyanıb şorbalarını içdilər. Ey Allahım! Əgər bunu sənin üzünü diləyərək etmişəmsə, bizim üzərimizdən bu yolumuzu kəsən qaya parçasını uzaqlaşdır!" (Səhih Buxari. 2215, 2272; Səhih Müslim. 2743). Bu, onların üzüntülərindən qurtulmalarına və işlərinin asanlaşmasına səbəb oldu.

Pak şəriətimizin sübutları, Allahın kitabı və peyğəmbərimizin (Səllallahu aleyhi və səlləm) sünnəsinin bu haqqa riayət etmək və onu əda etmək barəsində dəlilləri olduqca çoxdur. Bu dəlilləri elm əhli ədəb kitablarında qeyd etmişlər. Əgər bu mövzuda təkcə imam Buxarinin "Ədəbul-Mufrad"[3] kitabını və ya elm əhlinin hər hansı bir kitabını oxusan, onda çoxlu hədis və sübutların iman əhlini və müsəlmanların ümumunu bu böyük haqqın icrasına və buna riayət etməyə çağırdığını görərsən. Əgər sən bu kitaba – həmçinin, sünnə əhlinin digər kitablarına – adi bir nəzər yetirsən, səhabə nəslinin üzərində olduğu yüksək ədəb-əxlaqı, qocalığına baxmayaraq bu gözəl əxlaqı davam

---

1 Yəni saleh əməllərini xatırlayaraq Allahdan bu etdikləri yaxşı əməllərin müqabilində onlara yardım etməsini istəyərək dua etmişdilər.

2 Rəvayətdə "ğabuq" adlı şərbadan bəhs edilir ki, o süddən hazırlanır.

3 Yəni, müsəlman fərdin əxlaqı.

etdirənləri görərsən. Biz də bu nümunələrdən bəzilərinə və onların bəzi tərəflərinə işarələr edərək toxunacağıq.

## Yaşlıların Haqlarını Əda Etməyə Yardımçı Məsələlər:

Elə bu məqamda labüd olan bir durğuyla dayanırıq. Yaşlıların haqlarını, şəriətin bu haqları yerinə yetirməyə və buna olan çağırışını eşitdikdə bizim hər birimizin bu vacibatı yerinə yetirməyimiz üçün özü-özlüyündə bəzi şeyləri xatırlamağa və ağılımıza gətirməyimizə ehtiyacımız var. Yoxsa, bunun təsiri müvəqqəti olacaq və ya heç olmayacaqdır. Gəlin, praktiki həyatımızda bizim çox əziyyət çəkdiyimiz bir problemə diqqəti yönəldək; bu, bizim eşitdiyimiz faydalı moizələr, təsirləndirici xatırlatmalar baxımındandır ki, bizim bundan təsirlənməyimiz müvəqqəti olur. Bəzi insanlarda moizənin təsiri bir həftə və ya daha çox və ya bundan daha çox davam edir, sonra dayanır. Bizə öz halımızın bu cür olması yaraşmaz. Əksinə, bizə yaraşan halımızın xeyir qapılarından öyüd-nəsihət olunduğumuz və xatırladıldığımız məsələ ilə bərabər olmasıdır ki, o da bu təsirin davamlı və rabitəli olmasını istəməkdir. Uca Allah buyurmuşdur:

**"Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli olardı. Onda biz də öz tərəfimizdən onlara böyük bir mükafat verər və onları doğru yola yönəldərdik".** (ən-Nisa: 66-68).

Bu məqamda qeyd olunası maraqlı bir əhvalat da belədir; Bir dəfə məhəllə məscidində xütbə verən imamın yanına namaz qılanlardan biri (o məscidin əhlindən) gələrək onu danlayıb deyir: "Sən uzun illərdən bəridir ki bizə xütbə verirsən. Bəs bizim üçün nə etmisən? Bizə hansı töhfə

vermisən?" – məscidin imamı dərhal ona cavab verdi: "Siz də bu illər boyunca məni dinləmisiniz. Bəs siz nə etmisiniz?"[4]. Xətibin qayəsi bəyan etmək, öyüd-nəsihət etmək və xatırlatmaqdır. Onu eşidənə gərəkən isə ona xeyir çatdıqda onunla əməl etmək, o əməldə Allahdan yardım istəyərək davamlı olmaqdır. Bu isə bu xeyrin onun tətbiq etdiyi salamat bir praktiki iş olaraq qalması və Allahın onu özündən razı qaldığı halda vəfat etdirəcəyinə inanaraq bu əməli davamlı tətbiq etməsi üçündür.

Bizim etməyimiz gərəkən şey; "Yaşlı kimsənin haqları" adlı bəhs etdiyimiz mövzuda bizə xatırladılması gərəkən, bizə o haqları əda etməyə yardımçı olacaq bəzi məsələləri Allahla görüşəcəyimiz günə qədər tətbiqini davam etdirməkdir.

Bu mövzunun tətbiqini bir neçə məsələyə ixtisar etmək uyğun olardı:

**Birincisi:** Quran və hədislərdən bu əzəmətli haqqa – yaşlı kimsənin haqqına – riayət etməyin əhəmiyyətinə dəlalət edən sübutların və iman gətirmiş nəfslərə, sadiq qəlblərə böyük təsir edən dəlillərin üzərində dayanmaq; Allaha and olsun ki, həqiqətən də peyğəmbərimizin (Səllallahu aleyhi və səlləm) "Yaşlı müsəlmana hörmətlə yanaşmaq Allahın şanını uca tutmaqdandır" hədisi əgər özündə heç bir bulanıqlıq və örtük olmayan güclü bir qəlbə rast gələrsə, o qəlbi güclü silkələyər və ona çox güclü bir təsir etmiş olar. Həmçinin, sizə peyğəmbərin (Səllallahu aleyhi və səlləm) : "**Böyüyümüzə hörmətlə yanaşmayan bizdən deyildir**" – hədisini misal çəkmək olar.

Bizim bu dəlilləri və mübarək hədisləri peyğəmbərimizdən

[4] Yəni, bu eşitdiklərinizdən faydalanmısınızmı və əməl etmisinizmi?

(Səllallahu aleyhi və səlləm) eşitməyə ehtiyacımız var. Ta ki bu eşitmək bizə xeyir üzərinə yardımçı olsun. Xeyirin isə mərtəbələri və dərəcələri vardır. Birinci dərəcə eşitməkdir. Sonra anlamaqdır. Sonra əməl və tətbiq etməkdir. Bunlar da qulun tədricən əldə etdiyi mərhələlərdir.

Buna görə də şəriət elmə, onu əldə etməkdə davamlı olmağa rəğbətləndirmişdir; çünki o, müsəlmanın daxil olduğu elə bir böyük giriş qapısıdır ki, o, onunla (elmlə) bütün fəzilət növlərinə və xeyirlərin ən geniş qapılarından daxil ola bilər.

**İkincisi:** Allahdan bu haqqı əda etmək üçün yardım istəmək və Ona sığınmaq; "**Sənə fayda verən şey üçün çalış, Allahdan yardım istə, aciz olma!"** (Səhih Müslim, 2664. Əbu Hüreyrənin hədisindən).

Qurani-Kərimdə isə Allahu təala buyurur:

**"Biz yalnız sənə ibadət edir və yalnız səndən yardım istəyirik".** (Fatihə. 5). O həmçinin, buyurur:

**"Yalnız Ona ibadət et və Ona təvəkkül et".** (Hud. 123).

Əgər sənə Allahın yardımı və müvəffəqiyyəti dəstək olmasa, sən bu haqları yerinə yetirə bilməzsən. Bu səbəbdən də peyğəmbər Muaz ibn Cəbələ demişdir: **"Mən səni (Allah rizası üçün) sevirəm!"** - Muaz da cavabında: **"Mən də səni (Allah rizası üçün) sevirəm, ey Allahın elçisi!"** – dedi. Sonra peyğəmbər (Səllallahu aleyhi və səlləm) ona dedi: "Hər bir namazın arxasınca bunları deməyi tərk etmə: Ey Rəbbim! Mənə Səni zikr etməyə, Sənə şükür etməyə və Sənə gözəl ibadət etməyə yardım et!" (Əhməd, Əbu Davud, Nəsai; "Səhihut-Tərğib"də Albani "səhih" demişdir. 1596).

Hər hansı bir fəzilət və ya xeyir qapılarından biri barəsində eşitdikdə Allahdan sənə onu qazanmaqda yardım etməsini, onu sənə asanlaşdırmasını, onu etməyə səni müvəffəq etməsini və səni öz nəfsinin öhdəsinə buraxmamasını istə!

**Üçüncüsü:** Sən, ey müvəffəq olmuş müsəlman! Bu haqqa riayət etməklə əldə edəcəyin əzəmətli səmərələri və tam xeyirləri, dünya və axirətdə buna əməl etməyinin faydalarını xatırla; Allahu təbərakə və təala bu haqları əda edənlərə dünyalarında və axirətlərində xeyirlər və çoxsaylı nemətlər hazırlamışdır. Bu yaxşılıq, xeyir və ehsan dünyada ruzi bolluğunun, insanın ömrünün uzanmasının, həyatının (vaxtının) bərəkətlənməsinin, onun dərd, kədər və hüzünlərinin getməsinin, ondan müsibət və sınaqların uzaqlaşmasının səbəblərindəndir. Peyğəmbər (Səllallahu aleyhi və səlləm) buyurmuşdur: **"Sizə yalnız zəiflərinizə görə yardım edilir".** (Əbu Nueym, "Mərifətus-Səhabə"də: 577; Bəzzar. 1159). Həmçinin, O (Səllallahu aleyhi və səlləm) demişdir: "Kimi ruzisinin genişlənməsi və ömrünün uzanması sevindirirsə, qoy qohumluq əlaqələrini qorusun!" (Əhməd, Əbu Davud, ət-Tirmizi, ən-Nəsai, Əbu Dərdanın hədisindən; əl-Albani "əs-Sahiha" əsərində bu rəvayətin "səhih" olduğunu bildirmişdir. 780).

Böyüyün haqqı qorunmuş olduğundan dolayı iman əhli də onu əda və mühafizə edər. Şəkk yoxdur ki, bu ən böyük asanlaşdırılma, bərəkət və insanlardan fitnələrin, bəlaların uzaqlaşmasının səbəblərindəndir. Həmçinin bu, qulun dünyada və axirətdə əzəmətli xeyirləri və ardıcıl nemətləri əldə etməsi üçün səbəbdir.

**Dördüncüsü:** Quran və Sünnədən haqqında çoxlu

sübutların olduğu bir qaydanı və əsası xatırlamaqdır; O da: "Necə rəftar edirsənsə, o cür də rəftar olunarsan". qaydasıdır. Uca Allah buyurur:

**"Yaxşılığın mükafatı yalnız yaxşılıq deyildirmi?"** (ər-Rəhman. 60).

Yenə uca Allah buna müqabil olaraq buyurur:

**"Sonra isə Allahın ayələrini yalan sayıb onlara lağlağı etməklə pislik göstərənlərin nəsibi lap yaman oldu".** (ər-Rum. 10). Göründüyü kimi, yaxşılığın qarşılığı yaxşılıq, pisliyin qarşılığı isə pislikdir; Bundan dolayı, peyğəmbərə (Səllallahu aleyhi və səlləm) nisbət edilən bir hədisdə (hədisin sənədində mülahizə vardır) o (Səllallahu aleyhi və səlləm) buyurmuşdur: *"Kim yaşlı birini xor görərsə, övladları böyüyüb, özü qocaldığı zaman Allah onu xor görən birini üzərinə göndərməyincə, o kəs ölməz".* (İbn Əbid-Dünya "Ömür və qocalıq". 15; Beyhəqi "Şuab"da. 10485; Albani "Zəif Hədislər Toplusu" əsərində bunu xoş görməmişdir).

Əgər sən yaşlıya ehtiram göstərib onun haqqını gözləsən; Allahu təbərakə və təala sənin yaşlandığın zaman sənin haqlarını əda edəcək biriylə sənə asanlıq verər. Bu da sənin etdiyin yaxşılıq növündən sənə mükafat olaraq verilər. Sənin də üzərinə yaşlanıb qocaldığın, bədəninin zəif olduğu, hislərinin zəiflədiyi gün gəldikdə ətrafında sənin haqqına riayət edən və sənə ehtiram göstərən kimsəyə ehtiyacın olacaqdır; Yəni, "Necə rəftar edirsənsə, o cür də rəftar olunarsan".

Bu, keçmiş və bilinən bir sünnədir. İnsanlar gündəlik yaşamlarında bu həqiqəti yaxşı bilir, bunu özlərində və başqalarında müşahidə edə bilirlər. Öz nəfsinə nəsihətçi bir qul gərək Allahdan qorxsun, bu haqları əda etsin. Allahın ona

əcr, fəzilət, nemət verməsi və ikram etməsi üçün bu haqlara gərək riayət etsin.

**Beşincisi:** Saleh sələflərimizin üzərində olduqları mübarək durum haqqında düşünmək; Onların yaşlı kimsələrlə olan ədəblərini, ehtiramlarını, hörmət və təqdirlərini, haqlarını necə əda etmələrini düşünmək. Beləcə, sanki, saleh sələflərimizin üzərində olduqları halı görmüş olursan. Siyər kitablarını[5], səhabələrin və onları gözəl şəkildə izləyənlərin həyatlarını oxuduqca, onların yaşadıqları xoş əhvalatlar və heyrətamiz həyat hekayələrilə rastlaşaraq agah olursan ki, səhabə və tabeinlərin gəncliyi yaşlılara necə ədəb və ehtiram göstərmək qayəsində olmuşdur. O həyat tarixçələrindən şərəfli ədəb və yüksək əxlaq öyrənmiş olursan. Lakin, həyatının, gəncliyinin gözəl çağları oyunbazların və qafillərin xəbərlərini (həyat hekayələrini) izləməklə keçirməyə məftun olmuş kimsələr və onların bənzərlərinin mübarək saleh sələflərimizin ilk camaatının üzərində olduqları üstün və şərəfli əxlaqlarını tanımaları mümkün deyildir. Bizim onların üzərində olduqları xeyirdən pay almağımız üçün onların həyatlarını oxumağa, bilməyə nə qədər də ehtiyacımız vardır! "Onlara daha çox bənzəmək, bu əməl sahibinin daha kamil olmasına gətirib çıxarar". (Məcmuul-Fətəva, 10/210).

Bu sözləri deyən necə də gözəl söyləmişdir:
"Ey sözlü kəs, təkrar ver mənə onlardan xəbər,
Çün, onlardan danışmaq coşqun qəlbi bəzəyər".

Buna olan nümunə və misallardan biri isə "Səhiheyn"də[6]

---

[5] Məşhurların tərcümeyi-halı ilə əlaqəli həyat tarixçəsini əhatə edən, onların həyatı barədə bilgi verən kitablar. (tərc).

[6] Yəni Buxari və Müslimin "Səhih" əsərlərində.

ibn Ömərdən (Allah ondan və atasından razı olsun) varid olmuşdur. O demişdir: "Bir gün Allahın elçisi öz əshabına buyurdu: "Siz mənə mömininin məsəlinə bənzəyən bir ağac haqqında xəbər verin". Bundan sonra camaat çöldə olan ağacları xatırlamağa başladı. İbn Ömər (Allah ondan və atasından razı olsun) dedi: Mənə elə gəldi ki, o xurma ağacıdır və istədim bunu deyim. Baxdım ki, ətrafımda yaşlı kimsələr var. Beləcə danışmaqdan çəkindim. O vaxt ki, onlar da susdular, Allahın elçisi (Səllallahu aleyhi və səlləm) buyurdu: «O xurma ağacıdır»". (Səhih əl-Buxari. 61. 6122; Səhih Müslim. 2811).

Buna dair misallar çoxdur, - inşəAllah – qarşıda buna bir az toxunacağıq!

*    *    *

## İslamın çağırdığı və əmr etdiyi "yaşlıların haqları" isə bunlardır:

**Birincisi:** Ona hörmətlə yanaşmaq; Hədisdə gələn "bizim böyüklərimizə hörmət" ləfzi çox əzəmətli kəlamdır. Bunun çox uca və yüksək mənaları vardır. Yaşlı, qoca kimsəyə hörmət olunur. Onun nəfslərdə öz yeri, qəlblərdə öz dərəcəsi vardır. Ona ehtiram və hörmət edilir. Bu, yaşlıların (qocaların) haqlarını əda etməkdə gedilən yol və qaydadır; Çünki, kim böyüyə hörmət etməzsə, onun haqlarını əda etməsi də mümkün deyildir. Ona hörmət edərək onun heybətini gözləmək onun haqqıdır. O, eyni zamanda digər haqlarının, ehtiyaclarının ödənilməsi gərəkən kimsədir. Yaşlıya hörmət sənin qəlbində onun yerinin, heybətinin

olması və onun qədir-qiymətini, dərəcəsini bilməyindir. Bu isə onun haqlarından biridir.

**İkincisi:** Sonuncu qeyd etdiyimiz hədis, Əbu Musa əl-Əşarinin hədisində peyğəmbər (Səllallahu aleyhi və səlləm) buyurmuşdur: "Yaşlı müsəlman kimsəyə hörmətlə yanaşmaq Allahı uca tutmaqdandır". Ona hörmətlə yanaşmaq (ikram etmək) bu kəlamın dəlalət etdiyi mənaya görədir. (Bu isə) Gözəl xitab, yaxşı rəftar və gözəl şəkildə sevgiylə yanaşmaq və sair kimi hörmət (ikram) formalarından yararlanmaqdır.

**Üçüncüsü:** İlk öncə ona "salam vermək"; Necə ki, hədisdə gəlmişdir: "Kiçik böyüyə, minikdə olan isə piyadaya salam verməlidir". (Səhih əl-Buxari. 6231-32; Səhih Müslim. 5772. Əbu Hüreyrənin hədisindən).

Əgər yaşlı bir kimsəylə qarşılaşsan, onun sənə "salam" verərək başlamasını gözləmə. Əksinə, ona tam bir ədəbin, ehtiramın, hörmətin və lətafətinlə, həmçinin, onun yaşlılığını nəzərə almaqla ona salam verməyə tələs; Əgər onun eşitmə qabiliyyəti sağlamdırsa, ona eşidəcəyi bir səslə, əziyyət etmədən salam verilməlidir. Əgər yaşlılığından dolayı ağır eşidəndirsə, o zaman da buna riayət edirsən.

**Dördüncüsü:** Yaşlı bir kimsəylə söhbət etdikdə onu ən nəzakətli müraciətlə çağır, "əmican" və bunun kimi sözlərlə onun yaşına, qədir-qiymətinə ehtiram olaraq bunu et. Əbu Umamə ibn Səhldən rəvayət olunduğuna görə o demişdir: Ömər ibn Əbdül-Əzizlə bərabər zöhr namazını qıldıq. Sonra yola çıxdıq və Ənəs ibn Malikin yanına gəldik. Onu əsr namazını qılan yerdə gördük.

- Mən ona dedim: Əmican! Bu qıldığın namaz nə namazdır elə?
- Dedi: "Əsr namazıdır. Bu, Allahın elçisiylə (Səllallahu

aleyhi və səlləm) bərabər qıldığımız namazdır". (Səhih əl-Buxari, 549; Səhih Müslim, 623).

Rəvayət edildiyinə görə, Əbdür-Rəhman ibn Əuf (Allah ondan razı olsun) demişdir: "Bədr döyüşündə mən (döyüşçülərin) cərgələrində ikən sağıma və soluma baxıb gördüm ki, yanımda ənsardan olan iki azyaşlı uşaq durub. Onda mən, qüvvətli adamların arasında olmağı təmənna etdim. Uşaqlardan biri məni dümsükləyib dedi: "Əmican, Əbu Cəhli tanıyırsanmı?" – dedim: “Bəli, (tanıyıram)! O sənin nəyinə lazımdır, qardaş oğlu?” Uşaq dedi: Mənə deyiblər ki, o, Allahın elçisini söyür. Canım Əlində olan Allaha and olsun ki, əgər mən onu görsəm, ikimizdən əcəli daha yaxın olanı ölməyincə mən ondan əl çəkməyəcəyəm". (Səhih əl-Buxari. 3141; Səhih Müslim. 1752).

**Beşincisi:** Onu danışıqda, məclisdə yeməkdə və bir yerə daxil olduqda önə çəkmək; Bu, onun haqlarındandır. Buna görə də "Səhiheyn"də Səhl ibn Əbu Həsmədən (Allah ondan razı olsun) onun belə dediyi rəvayət olunur: "Abdullah ibn Səhl və Muheyyisa ibn Məsud ibn Zeyd Xeybərə tərəf getdilər – o gün orada sülh idi – Sonra isə ayrıldılar. Muheyyisa gələrək Abdullah ibn Səhlin ölünü qandan təmizlədiyini gördü. (Muheyyisa) ölünü basdırdı. Sonra Mədinəyə qədəm qoydu. Əbdür-Rəhman ibn Səhl, Muheyyisa və Huveyyisa – hər ikisi ibn Məsudun oğullarıdır – peyğəmbərin (Səllallahu aleyhi və səlləm) yanına getdilər. Onunla (Səllallahu aleyhi və səlləm) danışmağa Əbdür-Rəhman getdi.

- Peyğəmbər (Səllallahu aleyhi və səlləm) dedi: "Öncə böyük, öncə böyük!" O, qövmün ən yaşlısı idi.
- O susdu, sonra o ikisi danışdılar və belə dedilər: Siz and verirsiniz və sonra da sizi və ya dostunuzu öldürənin haqqını tələb edirsiniz?
- Dedilər: Necə ola bilər ki, şahidi olmadan, görmədən

and içək? Yəhudilər sizdən əlli dəfə bacarıqlıdırlar.

- Onlar isə dedilər: Kafir qövmün andlarını necə qəbul edə bilərik?!
- Peyğəmbər (Səllallahu aleyhi və səlləm) bunu özlüyündə anladı".

Burada sözün məğzi "öncə böyük, öncə böyük" sözüdür ki o, bununla yaşı qəsd etmişdir. Həmçinin, misvak hekayəsində və bundan qeyri hekayələrdə peyğəmbər yaşlını önə çəkməyə əhəmiyyət vermişdir. (Səhih əl-Buxari. 246. "Misvakı böyüyə vermək" babı; Səhih Müslim, 3003, 2271).

Malik ibn Məğuldan rəvayət edildiyinə görə o demişdir: Məsafın oğlu Təlha ilə gedirdim. Dar bir yoldan keçəsi olduq. O mənim önümə keçdi, sonra da mənə belə dedi: "Əgər sənin məndən bircə gün böyük olduğunu bilsəm, sənin önünə keçməzdim".

Musanın oğlu Fadl demişdir: "Mən və Abdullah ibn Mübarək çayın üzərindən keçmək üçün olan dairəvi bir körpünün yanına çatdıq. Mən ona dedim: Önə keç. Mən yaşımızı hesabladım və onun məndən iki yaş böyük olduğunu anladım".

**Altıncısı:** Yaşlılıq və zəifliyi səbəbilə onun səhhəti, ruhi və cismani vəziyyətiylə maraqlanmaq; Bu məsələ bir çox cavanların cahil qaldıqları məsələdir. Həmçinin, bilmək gərəkir ki, onun yaşadığı bu mərhələ onun bədənində, səhhətində və hislərində ümumi zəifliyin olduğu bir mərhələdir. Əgər Allah sənin ömrünü uzadarsa, ola bilsin ki, bunun mislində bir mərhələdən keçəsən. İnsan ömrünün ilk çağlarında və gəncliyinin ilk vaxtları mülaim, yumşaq xasiyyətli, nəzakətli olur. Sonra isə orta yaşlarında onun təbiəti dəyişir və gücünün bir hissəsi tükənir. Sonra da böyüyür və böyük qocaya, gücü zəifləmiş, az hərəkətli, adi

bir şeydə aciz qala bilən biri olur. Necə ki, Allahu təala buyurmuşdur:

**"Sizi zəif bir şeydən yaradan, zəiflikdən sonra sizə qüvvət verən, qüvvətli olduqdan sonra zəiflik və qocalıq verən Allahdır".** (ər-Rum. 54). Həmçinin, buyurmuşdur:

**"Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır".** (əl-Həcc. 5).

Elə isə, yaşlı kimsənin sənin üzərinə haqqı onun səhhəti, fiziki və psixoloji durumu ilə maraqlanmağındır. Hələ bəzi insanlar öz qocalarının yaşlılığı, halsızlığı, zəifliyi və ya duyğularının zəifliyi və bu kimi dəyişikliklərə, hətta, kiçik dəyişikliklərə belə nəzarət və diqqət edirlər.

Bu məsələni bilməyən birini böyüyə xidmətdən tezliklə bezdiyini, onunla xoş rəftardan sıxıldığını görərsən. Çünki, o kəs yaşlı kimsənin sıxıntı çəkdiyi durumu hiss etmək istəmir. Əgər bu məqamı xatırlasan və yadına salmaq istəsən, o zaman bunun sənin üzərində bir haqq və riayət edilməsi gərəkən vacibat olduğunu bilərsən. Onda sən bu vacibatı yerinə yetirər, buna daha yaxşı şəkildə riayət edər və buna ən gözəl şəkildə əda edərsən.

Təəssüf doğuran və acıverici məsələlərdən biri də bəzi övladların (böyüklərinə) müəyyən müddət yaxşılıq edərək xidmət göstərdikdən sonra bundan bezməsi, sıxılması və bu yaxşılığı tərk etməsidir. Hətta, bəzən iş o yerə çatır ki, bəzi övladlar yaşlı ata-anasını ahıllar evinə və ya hər hansı qocalara baxım yerlərinə tərk edirlər. Ola bilsin ki, onları oraya birdəfəlik atsınlar və onlardan üz döndərərək heç

onların ziyarət haqlarına da riayət etməsinlər. Hətta, bəzi ahıllar evlərində ata və ya ana on beş il, bundan az və ya çox bir müddətdə qalır, amma, övladlarından heç biri ziyarət belə etmir, heç bayram günündə də yanına getmirlər. Əgər bu cür övladdan soruşulsa ki: "Sən yaşlandıqda sənin övladların sənin etdiyin kimi səninlə davransalar, bu sənin xoşuna gələrmi?" Görəsən, o kimsə nə cavab verər? Şəkk yoxdur ki, o özü üçün buna razı olmaz.

Səhih bir hədisdə peyğəmbərin (Səllallahu aleyhi və səlləm) belə dediyi rəvayət olunur: "Kim cəhənnəmdən uzaqlaşdırılıb cənnətə daxil olmaq istəyirsə, qoy əcəli ona onun Allaha və axirət gününə inandığı halda gəlsin. Özü də insanlarla özüylə rəftar olunmasını istədiyi kimi rəftar etsin". (Səhih Müslim. 4882. Abdullah ibn Amrın (radiyəllahu anhu) hədisindən).

Hər bir halda, valideynlərdən biri o yaşlılıq mərhələsinə çatsa da, çatmasa da hər ikisinin də haqqına riayət edilməlidir. Bu, yaxşılığın qarşılığı, gözəl əməlin əda edilməsi, bilinən bir yaxşılıq olan xoş sözlə davranmağın qorunub saxlanması üçündür. Allahu təbarəkə və təala buyurmuşdur:

**"Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükr et. Axır dönüş Mənədir".** (Loğman. 14). Burada Allah valideynin haqqını öz haqqı ilə bir qeyd etdi və valideynə təşəkkürü özünə şükürlə birgə qeyd etdi:

"Mənə və valideyninə şükür et". Bu isə onların ölümünə qədər qalıcı olan bir haqdır. Allahu təala da bu barədə qiyamət günü qulundan soruşacaqdır.

**Yeddincisi:** Onlar üçün Allaha dua etmək; Allahdan onların ömürləri boyunca itaətdə olmalarını istəmək, doğruluq və müvəffəqiyyət diləmək, Allahın onları qoruması, onlara sağlamlıq və salamatlıq, həmçinin gözəl sonluq verməsi üçün dua etmək; Həmçinin, onların peyğəmbərdən insanların ən xeyirlisi haqda soruşulduqda: "**Ömrü uzanan və əməli gözəl olan kimsə**" - dediyi kimsələrdən olmaları üçün Allaha dua etmək.

- Deyilənə görə: "Bir dəfə Əbdül-Məlikin oğlu Süleyman məscidə daxil oldu və məsciddə yaşlı bir kimsəyə rast gəldi. Ona salam verdi və dedi: Ey filankəs! Ölməyi xoşlayırsanmı?
- Qoca dedi: Yox!
- O dedi: Nəyə görə xoşlamırsan?
- Qoca dedi: Çünki, artıq cavanlıq və onun şərri getmiş, yerinə qocalıq və onun xeyiri gəlmişdir. (İndi) Mən ayağa qalxdığım zaman "bismilləh" deyirəm. Oturduğum zaman isə "əlhəmdulilləh" deyirəm. Bu halın qalması mənim üçün daha xoşdur". (ibn Əbud-Dünya "Ömür və Qocalıq". 29; ibn Əsakir "Tarixi-Dəməşq". 9159; əd-Diynuri "əl-Mucələsə"də. 2021). Yəni, (o demək istəyirdi ki,) o, davamlı şəkildə həmd edən, zikr edən, şükür edən olaraq qalmaq istəyir. Artıq cavanlıq və onda olan şəhvətə müsəllət olma və pis hallara meyl etmək arxada qalmışdır. O, artıq qocalığın xeyir və bərəkətinə qədəm qoymuşdur. O, əcəlinin və həyatdan ayrılığın yaxınlaşdığı bir mərhələni yaşamaqdadır. Beləcə Allahı zikr edir, Ona həmd-sənalar edərək bu hal üzərində qalmaq istəyir.

**Səkkizincisi:** Bilmək lazımdır ki, nə qədər çalışılsa da bu, valideynin etdiyinin əvəzini ödəyə bilməz; Əbu

Hüreyrədən (Allah ondan razı olsun) rəvayət olunduğuna görə Allahın elçisi (Səllallahu aleyhi və səlləm) buyurdu: "Oğul atasının ona etdiyinin əvəzini ödəyə bilməz. Yalnız onu kölə (qul) kimi tapıb alması, sonra da azad etməsi istisnadır".

Əbu Bürdədən (Allah ondan razı olsun) rəvayət olunduğuna görə o demişdir:

"İbn Ömər Kəbəni təvaf edirdi. O zaman bir kişinin anasını (üzərində) daşıdığı halda təvaf etdiyini gördü. O kəs (anasını daşıya-daşıya) belə deyirdi:

Doğrusu anamın müti dəvəsiyəm.
Dəvə yorulsa da yorulan deyiləm.

Bu daşıdığım kəs mənim anamdır,
O məni bundan da çox daşımışdır!

Ey Ömərin oğlu! Səncə mən bununla onun haqqını ödəmiş olurammı? Dedi: Yox. Hətta, bu onun bircə (doğuş zamanı keçirdiyi) iniltini belə əvəz etmir".

Həsəndən rəvayət olunduğuna görə: "İbn Ömər anasını (kürəyində) daşıyaraq Kəbəni təvaf edən bir kişini gördü. O anasına: “Sənin haqqını ödədimmi, ey anam?” dedi. İbn Ömər cavabında dedi: "Ey miskin! Xeyir vallahi, bu onun bir (doğuş zamanı olan) sancısını belə əvəz etmir". (Mərvəzi "əl-Birru vəs-Sıla" əsərində rəvayət edib. səh. 37-38).

Bu qeyd olunan haqlar yaşlı kimsənin haqlarındandır ki, müsəlmana yaraşan bunlara riayət etməsidir. Bunlar "Yaşlı kimsə" mövzusu barəsində olan bəzi tövsiyə və yönləndirmələrdir. Allahu təbərakə və təaladan bizim məclislərimizi xeyir-bərəkətlə ümumiləşdirməsini, bizi faydalı elmə və saleh əmələ müvəffəq etməsini istəyirəm. Allahu təbərakə və təaladan onun gözəl adlarıyla və uca sifətləriylə atalarımızdan, qohum-əqrəbalarımızdan, qonşularımızdan və

ümumi olaraq müsəlmanlardan olan yaşlılara bərəkət verməsini, öz qorumasıyla onları qorumasını, onları öz himayəsinə götürməsini, onları öz tövfiqinə müvəffəq etməsini, onlara gözəl sonluq, gözəl əməl, doğru söz bəxş etməsini istəyirəm.

Həmçinin, Ondan bu kitabçaya böyük bərəkət verməsini, bunu xeyir və islah adına mübarək bir səbəb etməsini, bunu bizdən gözəl bir şəkildə qəbul etməsini, qulları üçün faydalı etməsini istəyirəm. Həqiqətən də O, - təbərakə və təala – duaları Eşidən, (Özünə) ümid etdiyimiz (Varlıqdır). O bizə yardımçı olaraq bəs edər, O nə gözəl Vəkildir!

# KİTABIN İÇİNDƏKİLƏR


Tərcüməçinin Ön Sözü....................................................3
Müəllifin Ön Sözü..........................................................4
Gözəl Əxlaqın Əhəmiyyəti.................................................7
Gözəl əxlaqla İslamın gözəlliklərini çatdırmaq.......................8
Yaşlı Kimsənin Haqları...................................................10
Yaşlı Kimsəni Əhatə Edən Müxtəlif İnsanlar.......................12
Yaşlıya Hörmətlə Əlaqəli Maraqlı Bir Hekayə......................13
Yaşlı Valideynə Xidmətlə Allaha Təvəssül Etmək................15
Yaşlıların Haqlarını Əda Etməyə Yardımçı Məsələlər...........17
1 – Quran və sünnədən bu haqqı göstərən dəlillər üzərində dayanmaq.............................................................18
2 – Allahdan bu haqqı əda etmək üçün yardım istəmək və Ona sığınmaq.............................................................19
3 – Bu haqqa riayət etməklə əldə ediləcək əzəmətli səmərələri, xeyirləri, dünya və axirətdə buna əməl etməyin səmərələrini xatırlamaq..................................................20
4 – "Necə rəftar edirsənsə, o cür də rəftar olunursan".......21
5 – Saleh sələflərimizin üzərində olduqları mübarək durum haqqında düşünmək; Onların yaşlı kimsələrlə olan ədəblərini, ehtiramlarını, hörmət və təqdirlərini, haqlarını necə əda etmələrini düşünmək......................................................22
İslamın çağırdığı və əmr etdiyi "yaşlıların haqları".............23
1 – Onlara hörmətlə yanaşmaq.......................................23
2 – Gözəl xitab, yaxşı rəftar və gözəl şəkildə sevgiylə yanaşmaq.............................................................24
3 – İlk öncə ona "salam vermək.......................................24
4 – Yaşlı bir kimsəylə söhbət etdikdə onu ən nəzakətli müraciətlə çağırmaq......................................................24
5 – Onu danışıqda, məclisdə yeməkdə və bir yerə daxil olduqda önə çəkmək.....................................................25
6 – Yaşlılıq və zəifliyi səbəbilə onun səhhəti, ruhi və cismani vəziyyətiylə maraqlanmaq............................................26

7 – Onlara dua etmək....................................................29
8 – Bilmək lazımdır ki, nə qədər çalışılsa da bu, valideynin etdiyinin əvəzini ödəyə bilməz.........................................30
Kitabın İçindəkilər.......................................................32
Qeydlər............................................................34-35

# QEYDLƏR:

## QEYDLƏR:

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:

Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** Yaşlı Kimsənin İslamdakı Haqları.
**Redaktədən sonrakı tarix:** 23.01.2025.
**Kitabçanın səhifələrinin sayı**: 36.
**Kağız ölçüsü:** A5  21 sm × 14.8 sm
**Müəllif:** Əbdürrəzzaq ibn Əbdülmühsin əl-Bədr.
**Tərcüməçi:** Sahib Əsədov.
**Korrektor:** Ülkər Qurbanova.
**Redaktor:** Malik Əliyev.
**Kitab üzlüyü:** Mehman Hidayətov



Ubadə ibn Samitdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurmuşdur:

**“Böyüklərə hörmət, kiçiklərə rəhm etməyən, alimin qədrini bilməyən bizdən deyil”.**

Əhməd, Hakim, Tirmizi. Hədis həsən-səhihdir.

Sələfin Əxlaqı